# ÖLMƏYƏN YADDAŞ

## ("Dünya səndən kimlər keçdi" silsiləsindən: ARİF MUSTAFAZADƏ)



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**O, dünyada yox imiş,**
**Gördüyüm kəs yuxuymuş.**
**Oturmazmış**
**burada,**
**bu divarın yanında.**
**Görünməzmiş dərdimiz**
**onun həyəcanında.**
**Özü olmadığından**
**olmayıb bir arzusu.**
**Nə biz olmuşuq,**
**nə o,**
**Ağ bir yalan imiş bu.**

Dünyadan nakam köçmüş şairləri xatırlayanda həmişə Əli Kərimin bu misraları yada düşür. Bu şeirin mənim fikrimcə, sevdiyim çox şairə dəxli var-Lermontova da, Puşkinə də, Əli Kərimə də, Sərdar Əsədə də, İsa İsmayılzadəyə də, Şahmar Əkbərzadəyə də, Nüsrət Kəsəmənliyə də, Eldar Baxışa da, Adil Mirseyidə də Və cəmi ikicə dəfə gördüyüm Arif Mustafazadəyə də.

Təbii ki, bir insanı cəmi ikicə dəfə görmək, sadəcə onun səsini dinləmək heç də onun haqqında xatirə yazmağa şans verməməlidir.Yox, mən ki xatirə yazmıram

Arif Mustafazadəni mən mərhum şairimiz, "Azərbaycan" curnalının baş redaktor müavini İsa İsmayılzadənin otağında görmüşəm. İsa müəllim onu mənimlə tanış edib: "Vaqif, bu-Arifdir,Gürcüstanda yaşayır, gözəl şairdir, tanış ol. Bizim curnalda şeirlərini verəcəyik. Al oxu!".

Mən bu məqamda İsa İsmayılzadəni xatırlamaya bilmirəm. 97-ci ilin ilıq iyun günlərinin birində yatağa düşən, artıq dili də söz tutmayan İsanı yoluxmağa getdik. Gözləri açıqdı. "Gözlərimə şəhər çöküb, Şəhər çöküb gözlərimə. Çoxmərtəbə evlər çöküb, Çoxmərtəbə heyrət çöküb, Çoxmərtəbə həsrət çöküb .Ay allahın bəndələri, Silin mənim gözlərimdən bu şəhəri, bu qəhəri-Qayıtsın gözümün aydınlığı da, Üzə çıxsın dağlar, düzlər, Üzə çıxsın kənd evləri " Bəli, gözümün qarşısında dünyaya açıq gözlə baxan, sevincini, qəhərini, həsrətini, heyrətini, hətta kiməsə sərt, çılğın münasibətini gizlədə bilməyən İsanın gözləri heç nə ifadə eləmirdi. Amma birdən gözləri uzaqlara dikildi, açıq-aşkar gördüm ki, o gözlər sanki cana gəldi: "Ay ana, ay ata, ay doğma oba, siz mənə, siz mənə bir ömrü halal eləyin.Mürgülü çöllərdən uzaq düşmüşəm, Təsbehli əllərdən uzaq düşmüşəm, ixtiyar illərdən uzaq düşmüşəm, siz mənə, siz mənə bir ömrü halal eləyin". Bir neçə gündən sonra İsanı Qarayazıya yola saldılar. Həsrətində olduğu o torpağa qovuşdu.

Arif Mustafazadə də elə həmin il-1997-ci ildə dünyasını dəyişdi. Görünür, bu iki ölüm arasında "qan qohumluğu" varmış.

2002-ci ildə, aprelin 4-də dostum Nəriman Əbdülrəhmanlı (İsanın da, Arifin də yaxın dostu) Arifin "Qaraçuxa nağılı" kitabını mənə bağışladı. Düz on üç ildir o kitab mənim əlimin altındadır, ora cəm olan bütün yazıları sətir-sətir oxumuşam, Nərimanın böyük zövqlə, əsl naşir səriştəsiylə tərtib etdiyi, ön söz yazdığı bu kitab haqqında dəfələrlə nəsə yazmaq istəmişəm, amma etiraf edim ki, hər dəfə o yazıya başlamaq istəyəndə bu sualı özümə vermişəm: mənə bu qədər doğma, içimi bu qədər tərpədən şeirləri təhlil etməyə ehtiyac varmı? Ancaq ədəbiyyat, poeziya təkcə sənə aid, sənin dünyana məxsus deyil.

Arif Mustafazadə elə şairlərdən idi ki, gözə görünmürdü, nə kitab çap elətdirmək, nə də şeirlərinin yayımı barədə bəlkəm heç fikirləşmirdi də. Tiflis ədəbi mühiti Gürcüstanda yaşayan azərbaycanlı şairlər üçün bir məktəb rolunu oynayıb, amma etiraf edək ki, o mühit Bakıdakı kimi qaynar, dolu mühit deyildi. Bəlkə Bakıda yaşasaydı, lap təvazökarlığının həddini aşsaydı kainatdakı təbiəti qovuşdurursan. "Ağappaq işıqda sevinmək olar, Ağappaq işıqla sevişmək olar". "Ulduz gözlərinə baxım doyunca, ulduz dizlərinə baş qoyum, yatım". "Gözümün üstündən alın yarpağı, payıza boylanım, payıza baxım". "Bir dümağ işığın mərhəmətində gedək, nağıllara qarışaq".

Təbiətin ayrı-ayrı atributlarını hər şair özünəməxsus boyalarla əks etdirir. Arifdə yağışın, küləyin,payızın təsviri yox "insaniləşməsi" baş verir. Bu baxımdan onun şeirləri, İsa İsmayılzadənin şeirləri ilə "qan qardaşıdır".

**Yenə də bayırda qalacaq yağış,**
**Döyəcək, döyəcək pəncərələri.**
**Nağıllı, sobalı bir ev gəzəcək,**
**Yağış barmaqları, yağış əlləri.**

**Yenə də girəcək yuxuma kimsə,**
**Təpədən-dırnağa suyun içində.**
**Mahnı oxuyacaq yanıqlı səslə,**
**Bayatı biçimdə, nağıl biçimdə.**

**Bir kəhər itirib, quyruğu düyün,**
**yəhəri gümüşdü, nalı qızıldı.**
**gözü oynayırdı ala buludda,**
**dırnağı altında torpaq qızırdı.**

Arif Mustafazadə "ictimai" şair deyildi, yəni onun şeirləri içərisində bu sortda heç bir nümunəyə rast gəlmədim. Amma onun şair xəyalı bütün tarix boyu səfərdə idi. Nağıl, bayatı, dastan, holavar, aşıq havaları, Koroğlunun qılıncı, Qıratı, türk ruhu, Oğuz elləri, təbriz həsrəti, Kür, Araz çayları, təbii ki, Qarayazı dünyası, nənələrin, babaların, müdriklərin obrazları ümumilikdə VƏTƏN deməkdi.

Arifin saz dünyasına bağlılığı təbii idi. Yaşadığı, üstündə gəzdiyi torpaq bu məhəbbəti ona aşılamışdı. Düşünürəm ki, əgər bu bağlılıq vardısa, onda gərək ünlü şairimiz Zəlimxan Yaqub kimi o da qoşmaya, gəraylıya, təcnisə həddsiz meylli olaydı. Amma belə deyil, o da İsa İsmayılzadə kimi qoşmaya, gəraylıya, təcnisə çox bənd belə, istər-istəməz bir şair kimi daha çox sevilərdi, tanınardı. Əlbəttə, bu, mənim subyektiv fikrimdir.

Arif Mustafazadə bütün mənalarda əsl şair idi, Nəriman Əbdülrəhmanlının çox doğru qeyd etdiyi kimi, onun Sözü "unudulmayacaq bir sevdadan yaranan Sözdü, əbədiyyətə hesablanan Sözdü".

Nədən yazırdı O?

Mən Qarayazını görməmişəm, amma onun şeirlərində Qarayazını gördüm də, sevdim də Onun içinə çökmüş, ruhuna hopmuş, varlığına hakim kəsilmiş Qarayazını.

**Hörük yerindən Qarayazıyacan**
**ağ-ağ qayaların yuxusu qara,**
**dünyanın ətəyi, yaxası qara,**
**arxalığı qara, çuxası qara.**

**Yanan Xan Kərəmin külü hardadı?**
**axan lilli çayın gülü hardadı?**
**yaralı durnanın teli hardadı?**
**hörük yerindən Qarayazıyacan.**

Nədən yazırdı O? Bu sualı yenidən verməyə çəkinirəm, çünki şairi nədən yazmağına görə yox, necə yazmağına, hər şeirində sözə can, nəfəs, ikinci həyat bəxş elədiyinə görə qiymətləndirmək daha doğrudur. Onun şeirlərini oxuyanda, heç fərqinə də varmırsan ki, Arif burada təşbehin hansı təzəsini, metaforanın hansı canlısını işlədib, şeirdə necə poetik mənzərə yaradıb, sadəcə, o şeir ilk misrasından sonuncuya qədər səni çəkib aparır. Hara? Dəlisov bir yağış həsrətinə, baharın çiçəkli çayına, payızın dumanlı havalarına, ağappaq bir işıq düşən yollara, uzun gecələrin tənhalığına, mahnıların qırx otağına, Təhlənin yaylaq köçünə daha haralara

Arifin elə bir şeiri yoxdu ki, təbiətin rənglərindən ora nəsə qatılmasın. Burada söhbət təbiəti duymaqdan, onu şeirdə özünə layiq boyada, rəngdə sözə çevirməkdən getmir. Təbiət təkcə kainatda, sənin gördüyün dünyada deyil, həm də sənin içindədir. Sadəcə, sən içindəki təbiətlə



**Yenə də bayırda qalacaq yağış,**
**Kimsə qapı açmaz, kimsə ovutmaz.**
**Necə köklənməsin, indi siz deyin,**
**"Kərəmi" üstündə sədəfli bir saz.**

Arif Mustafazadənin şeirlərinin özünəməxsus çalarları var. Əvvəla, bu şeirin təmiz ədəbi dil materialına istinad etdiyi, bir addım da ondan kənara çıxmadığı, lakin içində xalq ruhunu və inanclarını yaşatdığı, folklordan qidalandığı qeyd olunmalıdır. İkincisi, bu şeirdə Sazla Sözün harmoniyasını duyuruq. Üçüncüsü, rəssamlıq-rəng duyğusu, sözlə tablolar yaratmaq meyli açıqca hiss olunur. Dördüncüsü, onun şeirində YADDAŞ həm tarixi, həm də müasir planda çox önəmli rol oynayır.

**Mənim yaddaşımın gödək mənzili,**
**köhnə-köşkül dolu ağır zənbili,**
**Bir üfüq itirib dan ağaranda,**
**yaşıla, sarıya, boza çalırdı.**
**Bir himə bənd olan naxışlarını**
**elə bil, kökləyib ozan çalırdı.**

**Mənim yaddaşımın gödək mənzili,**
**sözümün, sovumun paslı zənciri,**

olmadı, amma şeirləri içərisində bu şer şəkillərinə də rast gəldim. Bircə qoşmasını misal gətirəcəyəm. Görəcəksiniz ki, bu, XX əsrin Tanrısal şairinin qoşmada yeni bir hava gətirməsidir.

**Mənəmmi dünyanın gözündən düşən,**
**güneyindən düşən, güzündən düşən**
**Ayüzlüm, qəbrimin üstünə düşən,**
**bu da bir qismətdi, belə gedirəm.**

**İşıqsan! Ruhuma, Tanrı, sal işıq,**
**bir güvənc qarışıq, ovunc qarışıq.**
**Mənim havamı çal, Tanrısal aşıq,**
**haqqın qapısına kölə gedirəm.**

**Səslənsən, səsinə atın çıxmaya,**
**qohumun çıxmaya, yadın çıxmaya.**
**Elə canım çanın çıxa, adın çıxmaya,**
**bircə düşməyəsən dilə, gedirəm.**

**Xaraba körpüyəm, keçilənəmmi,**
**payız otlarından seçilənəmmi,**
**qara torpaq üstdə kiçilənəmmi,**
**içimdən batıram lilə, gedirəm.**

**Ay Arif, havayı döymə dizinə,**
**həsrətmisən qohum-qardaş üzünə?**
**Haqsan, haq xəncəri bais gözünə,**
**nahaqsan, demə ki, selə gedirəm.**

Bu yazını yazanda Arif Mustafazadə ilə ikinci görüşümü də xatırlayıram. Yenə İsanın otağı. Amma bu dəfə Arif şeir gətirməmişdi, sadəcə, İsaya baş çəkirdi. Mən də beş-on dəqiqə onların söhbətinə qulaq asdım. Söhbətləri şeirdən deyildi, qohumqardaşdan gedirdi. Və mən diqqətlə Arif Mustafazadəyə baxırdım. Bu adi geyimli, kök və bəstəboy adamı elə bil həmişə görmüşəm,-deyə düşünürdüm.

**Sonralar şeirlərini oxuyanda bildim ki, zənnimdə yanılmamışam. Ömrümdə cəmi ikicə dəfə gördüyüm Arif Mustafazadə bir ŞAİR kimi yaddaşıma köçdü. Yaddaş isə ölmür.**